# Paşa Təhməzov



**Ötən əsrin 90-cı illərinin əvvəlində ölkəmizin təcavüzkar Ermənistan tərəfindən elan olunmamış müharibəyə cəlb edilməsindən sui-istifadə edən cinayətkar qruplar hər vəchlə dövləti parçalamağa və öz çirkin niyyətlərini həyata keçirməyə çalışırdılar. Onlar respublikanın müxtəlif yerlərində iğtişaşlar törədir, əhalini qorxu və təşviş içində saxlayırdılar.**

23 avqust 1993-cü ildə Azərbaycanın cənub bölgəsində də vəziyyət olduqca gərgin idi. Əlikram Hümbətovun başçılıq etdiyi cinayətkar dəstə "Talış-Muğan Respublikası" yaratmaq xülyası ilə Lənkəranda və ona yaxın olan rayonlarda özbaşınalıq edir, silah gücünə qanuni hökumət strukturlarını ələ keçirirdilər. Xalqın qəhrəman oğulları cinayətkar ünsürlərə qarşı mübarizəyə qalxdılar. Vətənin dar günündə Paşa Təhməzovun da narahatlığı artdı. O, cinayətkar qruplara qarşı mübarizəyə qoşuldu.

Paşa Təhməzov Vətəni azad, bütöv və firavan görmək istəyirdi. Elə bu istəklə də, Xalq hərəkatının önündə gedir, cinayətkar dəstənin məhv edilməsində əlindən gələni əsirgəmirdi. O, dövlətçiliyimizin, müstəqilliyimizin və ərazi bütövlüyümüzün qorunmasını hər şeydən uca tutdu. Öz idealına sadiq qalan Paşa bu yolda şəhidlik zirvəsinə yüksəldi. Son mənzili Lənkəran rayonundakı Şəhidlər xiyabanı oldu.

Paşa Təhməzov 23 may 1949-cu ildə Lənkəran şəhərində dünyaya göz açmışdır. Uşaqlıq illəri şən və mənalı keçmiş, məktəb illərində tədris olunan bütün fənləri həvəslə öyrənmişdır.

Paşa 1964-cü ildə 6 saylı orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra şəhər fəhlə-gənclər məktəbində təhsilini davam etdirmişdir. Əmək fəaliyyətinə Əhaliyə Məişət Xidməti İstehsalat Kombinatında usta köməkçisi kimi başlamışdır. O, iş prosesində qabaqcıl texnologiyanın tətbiqinə üstünlük verir, fəaliyyəti kombinatın rəhbərlərini razı salırdı.

Azərbaycan Respublikası Prezidentinin 23 avqust 1993-cü il tarixli 740 saylı Fərmanı ilə Paşa Qurban oğlu Təhməzov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Lənkəran şəhərindəki küçələrdən biri onun adını daşıyır. Yaşadığı binanın önünə Paşanın xatirə lövhəsi vurulmuş, rayonun "21 Avqust" meydanında büstü qoyulmuşdur.

**Q.TƏYYAROĞLU,**
**"Respublika".**